Avropa İttifaqının Azərbaycanın Lənkəran-Astara İqtisadi Rayonuna Dəstəyi



# AZƏRBAYCAN RESPUBLİKASI LERİK RAYONUNUN 2024-2026-Cİ İLLƏR ÜÇÜN İNKİŞAF PLANI (LƏNKƏRAN-ASTARA İQTİSADİ RAYONU)

Avropa İttifaqı tərəfindən maliyyələşdirilir

Layihə WEglobal və onun konsorsium tərəfdaşları tərəfindən həyata keçirilir

# TABLE OF CONTENTS

**AKRONİMLƏR VƏ QİSALTMALAR ....................................................................4**
**1. QİSA XÜLASƏ ....................................................................5**
**2. MÖVCUD VƏZİYYƏTİN TƏHLİLİ ....................................................................7**
2.1. Rayon haqqında ümumi məlumat....................................................................7
2.2. Əldə olunmuş nailiyyətlər ....................................................................9
2.3. Mövcud çağırışlar....................................................................19
2.4. GZİT təhlili....................................................................26
**3. PLANIN HƏDƏF GÖSTƏRİCİLƏRİ....................................................................27**
**4. PLANIN MƏQSƏDLƏRİ VƏ PRİORİTET İSTİQAMƏTLƏRİ....................................................................28**
4.1. Planın məqsədi ....................................................................28
**5. PLANIN DAYANIQLI İNKİŞAF MƏQSƏDLƏRİNƏ UYĞUNLUĞU....................................................................31**
**6. PLANIN MALİYYƏLƏŞDİRMƏ MƏNBƏLƏRİ VƏ MEXANİZMLƏRİ ....................................................................34**
**7. PLANIN İCRASI, MONİTORİNQİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ MEXANİZMLƏRİ ....................................................................34**
**8. PLANIN HƏYATA KEÇİRİLMƏSİNƏ DAİR TƏDBİRLƏR PLANI....................................................................35**
**I ƏLAVƏ ....................................................................46**
**II ƏLAVƏ ....................................................................47**
**III ƏLAVƏ ....................................................................48**
**IV ƏLAVƏ....................................................................49**

# AKRONİMLƏR VƏ QİSALTMALAR

| | |
|---|---|
| **AAYDA** | **Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi** |
| **ADSEA** | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi |
| **Aİ** | Avropa İttifaqı |
| **AİB** | Asiya İnkişaf Bankı |
| **AİŞ** | Azərbaycan İnvestisiya Şirkəti |
| **AKİA** | Aqrar Kredit və İnkişaf Agentliyi |
| **AQUPDK** | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi |
| **AXA** | Aqrar Xidmətlər Agentliyi |
| **ATT ASC** | “Aqrar Tədarük və Təchizat” Açıq Səhmdar Cəmiyyəti |
| **ATM** | Aqrar Tədqiqatlar Mərkəzi |
| **AYİB** | Avropa Yendənqurma və İnkişaf Bankı |
| **Azərişıq** | "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti |
| **AZPROMO** | Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi |
| **BMT** | Birləşmiş Millətlər Təşkilatı |
| **BMTİP (UNDP)** | Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı |
| **BOEM** | Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi |
| **DAİM** | Dövlət Aqrar İnkişaf Mərkəzi |
| **DB** | Dünya Bankı |
| **DİM** | Dayanaqlı İnkişaf Məqsədi |
| **DSK** | Dövlət Statistika Komitəsi |
| **DTA** | Dövlət Turizm Agentliyi |
| **DVX** | Dövlət Vergi Xidməti |
| **ƏƏSMN** | Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyi |
| **ƏMDX** | Əmlak Məsələləri Dövlət Xidməti |
| **ƏN** | Ədliyyə Nazirliyi |
| **EN** | Energetika Nazirliyi |
| **ETN** | Elm və Təhsil Nazirliyi |
| **ETSN** | Ekologiya və Təbii Sərvətlər Nazirliyi |
| **GİN** | Gənclər və İdman Nazirliyi |
| **GZİT (SWOT)** | Güclü tərəflər, zəif tərəflər, imkanlar və təhlükələrin təhlili |
| **İETİ** | İqtisadi Elmi-Tədqiqat İnstitutu |
| **İN** | İqtisadiyyat Nazirliyi |
| **İN LRB** | İN-in Lənkəran Regional Bölməsi |
| **İR** | İqtisadi Rayon |
| **KOBİA** | Kiçik və Orta Biznesin İnkişafı Agentliyi |
| **KTN** | Kənd Təsərrüfatı Nazirliyi |
| **MdN** | Mədəniyyət Nazirliyi |
| **MN** | Maliyyə Nazirliyi |
| **QHT** | Qeyri-hökumət təşkilatı |
| **RİH** | Rayon İcra Hakimiyyəti |
| **RİNN** | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi |
| **RİP** | Rayon İnkişaf Planı |
| **SİF** | Sahibkarlığın İnkişaf Fondu |
| **SN** | Səhiyyə Nazirliyi |
| **VXSİDA** | Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi |

# 1. QİSA XÜLASƏ

Hazırda Azərbaycan Respublikasında həyata keçirilən regional inkişaf siyasəti, müvafiq istiqamətdə qlobal trendlər, milli və yerli xüsusiyyətlər nəzərə alınmaqla, ölkədaxili regionların, o cümlədən rayonların, şəhərlərin, qəsəbələrin və kəndlərin, dayanıqlı, tarazlı və inklüziv inkişafının təmin olunması üçün əlverişli mühitin yaradılmasını nəzərdə tutur. Belə ki, regionların sosial-iqtisadi inkişafı məqsədilə qəbul edilmiş dövlət proqramları və onların yerlərdə uğurla icra olunması nəticəsində regionlarda şəhər, qəsəbə və kəndlərin siması köklü şəkildə dəyişmiş, regionların inkişaf potensialı güclənmiş, infrastruktur təminatı və biznes mühiti yaxşılaşmış, sosial xidmət sahələri inkişaf etmiş və əhalinin rifah səviyyəsi yüksəlmişdir.

Eyni zamanda, aparılmış təhlillər zamanı məlum olmuşdur ki, qeyd olunan istiqamətlərdə son dövrlər ölkədə əldə olunmuş nailiyyətlərlə yanaşı, paytaxtla - regionlar, şəhər yerləri ilə kənd yerləri, regionların özləri, eləcə də əlverişsiz coğrafi şəraitə malik bölgələr arasında sosial-iqtisadi inkişaf səviyyəsinə görə fərqlər mövcuddur.

Mütərəqqi dünya təcrübəsi göstərir ki, regional inkişaf siyasətinin səmərəliliyinin artırılmasında ölkə üzrə ümumi regional inkişaf proqramlarının və digər siyasət sənədlərinin hazırlanıb tətbiq olunması ilə yanaşı, rayonlar, şəhərlər, qəsəbələr və kəndlər üzrə də bütün səviyyələrdə əlaqələndirilmiş inkişaf planları hazırlanıb həyata keçirilir. Bu onunla şərtlənir ki, belə planlar hər bir regionun, şəhərin, rayonun, qəsəbənin və kəndin yerli xüsusiyyətlərini nəzərə almağa, onların inkişafı üçün daha uyğun yanaşmaların və həllərin tətbiqinə imkan yaradır.

Bu məqsədlə hazırlanmış "Lerik rayonunun İnkişaf Planı"nın ***əsas hədəfi*** qlobal trendlər, milli və yerli xüsusiyyətlər nəzərə alınmaqla, 2024-2026-cı illərdə Lerik rayonunun iqtisadi potensialının gücləndirilməsi, bu potensialın daha dolğun və səmərəli istifadəsini təmin etməklə rayonun sosial-iqtisadi inkişafının sürətləndirilməsi və dayanıqlılığının artırılmasına nail olmaqdır.

“Lerik rayonunun İnkişaf Planı” (bundan sonra - Plan) hazırlanarkən Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 6 mart tarixli 1294 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət proqramlarının tərtibi, icrası, monitorinqi və qiymətləndirilməsi Qaydası”nın tələbləri gözlənilmiş, Azərbaycanda və digər qabaqcıl ölkələrdə müvəffəqiyyətlə tətbiq olunan mütərəqqi ***metodoloji yanaşmalardan*** istifadə edilmişdir. Belə ki, Lerik rayonunun inkişafının diaqnostikasının aparılması məqsədilə statistik, inzibati və indiyədək hazırlanmış (ikincili) məlumatlar masaüstü tədqiqat yolu araşdırılaraq ilkin nəticələr formalaşdırılmış, eləcə də, məlumatların toplanılması və təhlil edilməsi məqsədilə rayonda ***fokus qrup*** (müzakirə qrupları) və ***iştiraklı yanaşma metodologiyasına*** əsaslanan “Diaqnostik Seminar” görüşləri təşkil edilmiş, həmçinin, görüşlər zamanı “GZİT (SWOT)”, “Problem ağacı” və “Müqayisəli təhlil” metodlarından istifadə edilərək əldə edilən nəticələr əsasında Rayon İnkişaf Planı və həyata keçirilməsi nəzərdə tutulan Tədbirlər Planı hazırlanmışdır.

Plan 4 əsas hissədən ibarətdir:

- **Mövcud vəziyyətin təhlili -** rayon haqqında ümumi məlumatlar, sosial-iqtisadi inkişaf göstəriciləri, ötən dövr ərzində rayonda əsas sahələr üzrə (kənd-təsərrüfatı, sənaye, sahibkarlığın inkişafı, turizm, məşğulluq, fiziki və sosial infrastruktur,

ekoloji vəziyyət və ətraf mühit) əldə edilmiş nailiyyətlər, eləcədə mövcud çağırışlar əks olunmuşdur.

- **Planın hədəfləri, məqsədləri və prioritet istiqamətləri -** rayonda sosial-iqtisadi və ekoloji sahələrdə mövcud vəziyyətin diaqnostik təhlilinə və "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"-nın milli prioritetlərinə əsaslanaraq planın əhatə etdiyi dövrdə rayonun inkişafına ümumi baxış, planın missiyası və hədəf göstəriciləri, eləcə də rayonunun sosial-iqtisadi inkişafının sürətləndirilməsinə və dayanıqlılığının artırılmasına nail olunması üçün 8 prioritet istiqamət barədə məlumatlar əks olunmuşdur.
- **Planın maliyyələşdirmə mənbələri, monitorinqi və qiymətləndirilməsi -** planda icrası nəzərdə tutulan tədbirlərin müxtəlif mənbələr (dövlət büdcəsi, əsas fondlar, investisiyalar, kreditlər, qrantlar və s.) hesabına maliyyələşdirilməsi, eləcə də tədbirlər üzrə ilkin, aralıq və yekun nəticələrin monitorinqinin və qiymətləndirilməsinin aparılması barədə məlumatlar əks olunmuşdur.
- **Tədbirlər Planı -** prioritet istiqamətlər üzrə müəyyənləşdirilən tədbirlər, onların icrasına məsul olan icraçı qurumlar, icra müddətləri və nəticə indikatorları barədə məlumatlar əks olunmuşdur.

Plan hazırlanarkən davamlı inkişaf prinsipləri, o cümlədən BMT-nin "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf Gündəliyi" ilə müəyyən olunan Dayanıqlı İnkişaf Məqsədləri, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər", "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası", regionların sosial-iqtisadi inkişafı ilə əlaqədar qəbul olunmuş proqramlar, digər əlaqədar dövlət proqramları və siyasət sənədləri, Azərbaycan Respublikası ilə beynəlxalq tərəfdaşlar (BMT, DB, Aİ, AYİB, AİB və s.) arasında imzalanmış əməkdaşlıq sazişləri və həyata keçirilən layihələrin təcrübələri nəzərə alınmışdır.

Lokal səviyyədə hazırlanmış Plan rayonda mövcud sosial-iqtisadi və ekoloji vəziyyətin daha detallı təhlil edilməsinə, çatışmazlıqların müəyyənləşdirilməsinə, mövcud çağırışların həlli üçün çevik və adekvat cavab tədbirlərinin görülməsinə şərait yaratmaqla, müvafiq zaman çərçivəsində prioritet istiqamətlər üzrə müəyyən edilmiş hədəflərə çatmağı özündə ehtiva edir.

# 2. MÖVCUD VƏZİYYƏTİN TƏHLİLİ

## 2.1. Rayon haqqında ümumi məlumat

Lerik rayonu 1930-cu ilin avqust ayının 8-də təşkil edilmiş və 1938-ci ilin yanvar ayınadək mərkəzi Qosmalıan kəndi olmaqla Zuvand rayonu adlanmışdır. Rayon Azərbaycan Respublikasının cənub-şərqində İran İslam Respublikası ilə sərhəddə (sərhəd zolağının uzunluğu 49,5 km-dir), dağlıq ərazidə yerləşir. Lerik rayonunun ərazisi Talış silsilə dağlarının əhatəsindədir, cənub və cənub-qərbdə Yardımlı, şimal-şərqdə Masallı, şərqdə Lənkəran, cənub-şərqdə Astara rayonları ilə həmsərhəddir. Ən yüksək dağ zirvələri Kömürköy (2493 metr) və Qızyurdudur (2433 metr). Rayonun ərazisində "Zuvand dövlət Təbiət yasaqlığı" və "Rvarud Dövlət Təbiət Yasaqlığı" fəaliyyət göstərir. Rayon mərkəzi paytaxt Bakı şəhərindən 323 km, Lənkəran şəhər mərkəzindən isə 52 km uzaqlıqdadır.

**Territorial division of Lankaran-Astara economic district**









2022-ci ilin əvvəlinə olan məlumatlara görə, Lerik rayonunun ərazisi 1084 km2, əhalisi 85,2 min nəfərdir ki, onun da 69,1 %-i əmək qabiliyyətli yaşdadır. Əhalinin orta sıxlığı 1 km2-də 79 nəfər təşkil edir. Ərazidə 40,3 min hektar meşə örtüyü (ümumi ərazinin 37%-i) vardır. Rayonda 1 şəhər, 161 kənd var, 29 kənd ərazi icra nümayəndəliyi və 29 bələdiyyə qurumu fəaliyyət göstərir. Əhalinin 10,1%-i şəhərdə, qalanı isə kəndlərdə məskunlaşmışdır. Eyni zamanda, əhalinin 49,7 faizini kişilər, 50,3 faizini isə qadınlar təşkil edir. Rayonda Bayraq muzeyi, "Tarix-diyarşünaslıq" muzeyi və onun "Uzunömürlülər" filialı, Heydər Əliyev Mərkəzi, eləcə də, mərkəzləşdirilmiş kitabxana sistemi, (60 kitabxana, şəhərdə bir mərkəzi kitabxana, bir Uşaq kitabxanası), 11 mədəniyyət evi, 58 klub, 1 rəsm qalereyası, 2 ibtidai musiqi məktəbi fəaliyyət göstərir. Rayon üzrə 173 tarixi abidə qeydə alınmışdır. Bunlardan 42-si ölkə, 131-i isə yerli əhəmiyyətli abidələrdir. Rayonda qeydiyyatdan keçmiş qeyri-hökumət təşkilatlarının sayı 12-dir.

Ərazisinin böyük hissəsinin dağlıq olması səbəbindən rayon əhalisinin əsas məşğuliyyəti heyvandarlıq və əkinçilikdir. Bununla yanaşı, rayonda kənd təsərrüfatı məhsullarının emalı və tikinti materiallarının istehsalı kimi bəzi sənaye sahələri də inkişaf etdirilir. Həmçinin, təhlillər göstərir ki, ecazkar təbiətə malik olan Lerik rayonunda turizmin inkişafı əvvəlki illərə nisbətən artmaqdadır.

**Lerik rayonunun inzibati və məskunlaşma xəritəsi**



*__Qeyd:__ Lerik rayonunda əhalinin 55,6%-i 1000-2000 m, digər 44,4%-i isə 500-1000 m arasında yüksəklikdə məskunlaşmışdır. Əhalisinin sayı 200 nəfərdən az olan 42 kənd var.*

## 2.2. Əldə olunmuş nailiyyətlər

Son illərdə rayonda iqtisadiyyatın prioritet sahələrinin inkişaf etdirilməsi, eləcə də, müasir yolların inşası, su xətlərinin çəkilməsi, qazlaşdırmanın əhatə dairəsinin genişləndirilməsi, elektrik enerjisi təchizatının yaxşılaşdırılması, mövcud istehsal və xidmət, o cümlədən təhsil və səhiyyə müəssisələrinin, turizm-istirahət və infrastruktur obyektlərinin modernləşdirilməsi və yenilərinin yaradılması, yeni iş yerlərinin açılması, abadlıq-quruculuq işləri aparılması istiqamətində nəzərəçarpan işlər görülmüşdür.

Bu dövrdə rayonda bir sıra ucqar kəndlərə ilk dəfə olaraq asfalt yollar, qaz və su xətləri çəkilmişdir. Rayonda sosial-iqtisadi inkişafın davamlı xarakter alması əhalinin yaşayış şəraitinin xeyli yaxşılaşmasına da səbəb olmuşdur.

Rayonun sosial-iqtisadi göstəricilərinə nəzər salsaq, 2022-ci il ərzində rayonda ümumi məhsul buraxılışının (141554,9 min manat) 60,0%-i kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 26,8%-i ticarət və nəqliyyat vasitələrinin təmiri, 5,4%-i tikinti, 5,2%-i sənaye, 2,1%-i nəqliyyat və anbar təsərrüfatı, 0,4%-i informasiya və rabitənin payına düşmüşdür.




Rayonda sosial-iqtisadi inkişafın sürətləndirilməsi üçün ilkin şərtlər mövcuddur. Bunlara mövcud yeraltı və yerüstü sərvətləri, insan resurslarını, istehsal-texniki potensialı və zəruri infastruktur sahələrinin müəyyən səviyyədə inkişafını aid etmək olar.

***Kənd təsərrüfatı***

Rayon iqtisadiyyatının əsasını təşkil edən kənd təsərrüfatında 2022-ci ildə 84904,3 min manat dəyərində məhsul istehsal olunmuşdur ki, onun da 26 597,8 min manatı əkinçiliyin, 58 306,5 min manatı isə müvafiq olaraq heyvandarlığın payına düşür. Rayonda mövcud olan kənd təsərrüfatına yararlı torpaq sahəsi 52568 ha və ya ümumi torpaq sahəsinin (108400 ha) 48.5 %-ni təşkil edir ki, bunun da təqribən 11%-i əkinçilik üçün istifadə olunur.

Ümumi məhsul buraxılışı, 84904,3 mln. manat

- Heyvandarlıq, 68,7%
- Əkinçilik, 31,3%

K/t-na yararlı torpaq sahəsi, 52568 ha → Əkinçilik üçün istifadə olunan ərazi 5782,5 ha (11%)

2022-ci ildə 5469,4 ha sahədə kənd təsərrüfatı məhsulları əkilmişdir: dənlilər və dənli paxlalı bitkilər - 3058 ha (56%); kartof - 1537 ha (28%); tərəvəz - 343 ha (6%); bağlar və giləmeyvəliklər -531,4 ha (10%). 2022-ci ildə rayonda 2864 hektar sahədə biçin işləri həyata keçirilmiş, 6760 ton taxıl əldə edilmiş, hər hektara orta məhsuldarlıq 23,6 sentner olmuş, 1537 ha sahədən 22286,5 ton kartof, 45 ha sahədən 584,3 ton sarımsaq, 200 ha sahədən 2578 ton soğan, 28,5 hektar sahədən 369,1 ton kələm, 30 ha sahədən 387 ton xiyar, 39,5 ha sahədən 517,5 ton pomidor istehsal olunmuşdur. 2022-ci ildə rayonda iribuynuzlu mal-qaranın sayı 38969 baş, qoyun və keçilərin sayı isə 103902 baş olmuşdur.

**Lerik rayonunun iqtisadi xəritəsi**




Təsərrüfatlarda 4233 ton ət, 23743 ton süd, 7930 min ədəd yumurta və 218 ton yun istehsal olunmuşdur.

## 2022-ci ildə rayonda əkilmiş kənd-təsərrüfatı məhsulları




## 2022-ci ildə rayonda istehsal olunan əkinçilik məhsulları




## 2022-ci ildə rayonda istehsal olunan heyvandarlıq məhsulları



Alma və kartof istehsalı rayon əhalisinin gəlirlərinin artırılması və bütövlükdə rayonun kənd təsərrüfatının inkişaf etdirilməsi üçün ənənəvi və perspektivli sahələrdir. Aparılmış təhlillər göstərir ki, Lənkəran-Astara iqtisadi rayonuna daxil olan inzibati rayonlar üzrə alma bağlarının (474,7 ha) 53,2 %-i, kartof üzrə əkin sahəsinin (10209 ha) 15 %-i Lerik rayonunun payına düşdüyü halda, burada almanın yalnız 25 %-i (regionda 2-ci sırada), kartofun isə 8,9 %-i (regionda 2-ci sırada) istehsal olunur.

***Sənaye***

Rayon istehsal olunan sənaye məhsullarının həcminə görə (7460,7 mln) regionda 5-ci yerdə qərarlaşmışdır. Eyni zamanda, Lənkəran-Astara iqtisadi rayonu üzrə fəaliyyət göstərən 130 sənaye müəssisəsindən 7-si Lerik rayonunun payına düşmüşdür. Rayonun əsas aparıcı biznes subyektləri Piran kəndində yerləşən "Kaspi-star" MMC (zavod kərpic, qum-çınqıl, üzlük daşların istehsalı ilə məşğuldur), "Lerik-broyler" nişanı ilə tanınan broyler fabriki (müəssisə saatda 6 min ədəd toyuq, həftədə 132 min ədəd cücə istehsal etmək gücünə malikdir) və çörək istehsalı müəssisəsidir (Lənkəran-Lerik yolunun 37-ci km-də yerləşir). Digər sənaye müəssisələri (elektrik paylayıcı şəbəkə, qaz istismarı sahəsi, su-kanal sahəsi və modul tipli elektrik stansiya) rayonda müvafiq sahələr daimi fəaliyyət göstərirlər.




Hazırda, Peştətük kəndində süfrə suyu və şirə istehsal edən müəssisə tikilir, Lerik şəhərində çörək zavodu yenidən qurulur. Həmçinin, Hamarat kəndində Mis emalı zavodu geoloji işlərə başlamışdır.

***Sahibkarlığın inkişafı***

Lerik rayonunda 551 hüquqi, 7606 fiziki şəxs fəaliyyət göstərir. Rayonda mikro, kiçik və orta sahibkarların fəaliyyətinin dəstəklənməsi, istehsal və xidmət sahələrinin inkişafının davamlılığının təmin edilməsi, əhalinin məşğulluğunun və gəlirlərinin artırılması, biznes mühitinin yaxşılaşdırılması, bazara çıxışın asanlaşdırılması, investisiya qoyuluşlarının və ixracın təşviqi istiqamətində də tədbirlər davam etdirilir. Ölkədə həyata keçirilən iqtisadi və aqrar siyasət tədbirlərinə uyğun olaraq sahibkarlara, o cümlədən kənd təsərrüfatı istehsalçılarına subsidiyalar və güzəştli kreditlər verilir və digər dövlət dəstəkləri göstərilir.

2002-2022-ci illər ərzində İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu tərəfindən Lerik rayonu üzrə 465 investisiya layihəsinin maliyyələşməsinə 18,0 milyon manat güzəştli kredit ayrılmışdır. Bu layihələr hesabına rayonda qeyd olunan illər ərzində 1700 yeni iş yerinin açılması mümkün olmuşdur. Layihələrin 62%-i kənd təsərrüfatı

məhsullarının istehsalı, 33%-i sənaye məhsullarının istehsalı və emalı, 5%-i isə turizm sektorunun payına düşmüşdür.

Eyni zamanda, 2019-2022-ci illərdə Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Kredit və İnkişaf Agentliyi tərəfindən Lerik rayonu üzrə heyvandarlığın inkişafına 1169,5 min manat, arıçılığın inkişafına 142,6 min manat məbləğində güzəştli kredit verilmişdir. 2020-2022-ci illər ərzində Lerik rayonu üzrə 1776,8 min manat əkin subsidiyası verilmişdir.




2022-ci ildə rayonda 36 sayda texnika və texnoloji avadanlıqların alınması üçün 177,0 min manat məbləğində kredit və 238,9 min manat məbləğində güzəşt vəsaiti ayrılmışdır. Hazırda Lerik rayonunda sahibkarlıq subyektlərinin istifadəsində ümumilikdə 212 kənd təsərrüfatı texnikası vardır (onlardan 175 ədədi işləkdir).

***Turizm***

Turizmin Lerik rayonunda nisbətən yeni sahə olmasına baxmayaraq, rayonun əlverişli coğrafi-mövqedə yerləşməsi turistlərin qısa zaman ərzində rayona maraq göstərməsinə, eləcə də sözügüdən sahədə iqtisadi dinamikanın artmasına səbəb olmuşdur. Belə ki, 2022-ci il üzrə göstəricilərə əsasən rayonda fəaliyyət göstərən mehmanxana və mehmanxana tipli müəssisələrin birdəfəlik tutumu 715 nəfərə, nömrələrin sayı isə 187 ədədə çatdırılmışdır. Qeyd olunan müəssisələrdə keçirilmiş gecələmələrin sayı 3861 nəfər təşkil etmişdir ki, onun da hamısı yerli turistlərin payına düşmüşdür.

## Lerik rayonunun turizm xəritəsi




**Ş ə r t i i ş a r ə l ə r**

- Dövlət sərhədi
- İnzibati rayon sərhədi
- Yasaqlıq
- Avtomobil yolu
- Çay
- Meşə
- Şəhər
- Yaşayış məntəqəsi
- Zirvə

Turizm potensialı

- Ekoturizm potensiallı ərazi
- Balneoloji turizm potensiallı ərazi
- Qədim yaşayış məskəni
- Bulaq
- İstirahət mərkəzi
- Kənd evi
- Məscid
- Dini ocaq
- Qala
- Türbə
- Şəlalə
- Mağara
- Qoruq
- Dağ
- Yamac paraşütü potensiallı ərazilər
- Trekinq potensiallı ərazilər
- Aqroturizm əraziləri

**Bulaqlar**
1. Hilədərə
2. Qışlaq
3. Hüseynabad
4. Bülüdül
5. Böyük bulaq
6. Bıskeş
7. Qıj-qıl
8. Hamarat
9. Piran
10. Dəstər
11. Davradibi
12. Vistən
13. Barzavu
14. Livədirqə
15. Əvilə
16. Pirəsora
17. Bilnə

**Dağlar**
18. Gündüz
19. Qala

**Şəlalələr**
20. Qələbin
21. Bibiyani
22. Sivəkəran
23. Günəşli
24. Çayrud
25. Tokiyəxil

**Mağaralar**
26. Büzeyir
27. Zuvandçay
28. Kələxan

**Qalalar**
29. Oğlan qala
30. Qız qalası
31. Kələxan

**Məscid**
32. Lüləkəran məscidi

**Türbə, ocaq, yaşayış məskəni**
33. Akuşa
34. Cəngəmiran
35. Kəla
36. Xoca Seyid
37. Babagil
38. Gürdəsər qədim yaşayış məskəni
39. Pirzora ocağı
40. Mədəniyyət mərkəzi
41. Xəlifə Zəkəriyyə

**Muzeylər**
42. Uzunömürlülər muzeyi
43. Diyarşünaslıq muzeyi
44. Zuvand dayaq məntəqəsi

2022-ci ildə Lerik rayonunda fəaliyyət göstərən mehmanxana və mehmanxana tipli müəssisələrin gəlirləri (min manatla)




Rayonda fəaliyyət göstərən “Relax”, “Təbəssüm”, “Meşəbəyi”, “Çənlibel”, “Xəyal”, “Həyat”, “Qala”, “Cənub”, “Möcüzə”, “Səfa” turizm-istirahət-əyləncə mərkəzlərində istirahət edən qonaqlara vaxtlarının səmərəli keçirmələri üçün şərait yaradılmışdır. Eləcə də, kənd turizminin inkişafı ilə əlaqədar rayona gələn qonaqlar üçün kənd evlərinin gündəlik kiraye verilməsi hallarında (təkcə Hamarmeşə kəndində 40-a yaxın ev kirayə verilir) artım müşahidə edilməkdədir.

***Məşğulluq***

Rayonda əhalinin məşğulluq və gəlir imkanlarının artırılması da həmişə diqqət mərkəzində olmuşdur. 2003-2022-ci illər ərzində rayonda 16965 yeni iş yeri açılmışdır. Bunun 40%-dən çoxu daimi iş yerləridir. 2022-ci ildə Lerikdə 38098 nəfər məşğul əhali olmuşdur ki, onlardan 3562 nəfəri işsiz (işsizlik səviyyəsi 8,6%) əhalidir. İşsiz əhalinin sayı şəhər yerlərində 487 nəfər, kənd yerlərində 3075 nəfər olmuşdur. Rayonda muzdla işləyən əhalinin sayı 5 min nəfər (region üzrə 67,9 min), orta aylıq əmək haqqı isə 556,7 manat (region üzrə 543,8 manat) olmuşdur. Lənkəran-Astara regionunun digər rayonları ilə müqayisədə Lerik rayonu bu göstərici üzrə ikinci yerdə qərarlaşır:




Bununla yanaşı, işsiz və işaxtaran şəxslərin aktiv məşğulluq proqramlarına cəlb edilməsi istiqamətində də işlər görülmüşdür. Təkcə 2022-ci il ərzində Lerik rayonu üzrə 178 nəfər işsiz və işaxtaran şəxs özünüməşğulluq proqramına cəlb olunmuş, onlardan 170 nəfəri kənd təsərrüfatı, 8 nəfər istehsal və xidmət sahələri üzrə proqrama müraciət etmişdir.

***Fiziki infrastruktur (elektrik təchizatı, qazlaşdırma, su təminatı, rabitə və nəqliyyat)***

Son illər rayonda ***elektrik enerjisi*** təchizatının yaxşılaşdırılması istiqamətində xeyli işlər görülmüşdür. Belə ki, rayonun 162 yaşayış məntəqəsinin hamısı elektrik enerjisi ilə təmin edilmişdir. Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən Lənkəran-Hamarat-Lerik 35 kv-luq yüksək gərginlikli elektrik hava xətti əsaslı təmir edilmiş, Lerik şəhərində 16,5 MQAVAT-lıq modul tipli elektrik stansiyası inşa edilmiş, Lerik, Zərigüməco, Siyov, Rvarud 35/10 kv-luq yarımstansiyaları yenidən qurulmuş, 12 yaşayış məntəqəsində 10/04 kv-luq hava xətləri sip kabellə əvəzlənmiş, abonentlərə smart kartlı sayğaclar quraşdırılmışdır. Noda, Nüvədi, Vizəzəmin, Əliabad inzibati ərazi dairələrini əhatə edən kəndləri qidalandıran, 96 kilometr uzunluğunda olan 10 kv-luq elektrik hava xətləri yenidən qurulmuş, 10 mindən çox ağac dayaq dəmir dayaqlarla əvəzlənmişdir. Hazırda, Siyov yarımstansiyasının tikintisində son tamamlanma işləri görülür.

Lerik rayonunda 2006-cı ildə başlanmış ***qazlaşdırma işləri*** nəticəsində hazırda Lerik şəhəri də daxil olmaqla 60 yaşayış məntəqəsi (37%) tam qazlaşdırılmışdır.

| Qazlaşdırılan yaşayış məntəqələrinin sayı | | |
|---|---|---|
| | Məntəqələrinin sayı | Abonentlərin sayı |
| **Cəmi** | 60 | 5260 |
| **Şəhər** | 1 | 1532 |
| **Kənd** | 59 | 3728 |

Son illər Peştətük, Vizəzəmin, Cəngənəvud, Bibiyanı, Sipyəreğon və Kıncıvo, Kirəvud, Boykəndil, Gürdəsər, Laman, Şingədulan, Lərmərud, Şonaçala, Qələsər, Hoveri, Divağac kəndləri qazlaşdırılmış və qalan kəndlərin də qazlaşdırılması istiqamətində işlər davam etdirilir.

Lerik şəhərinin və rayonun inzibati ərazisinə daxil olan yaşayış məntəqələrinin əhalisini ***içməli su və kanalizasiya xidməti*** ilə təmin etmək üçün də işlər görülür. Belə ki, 2011-ci ildən Dünya Bankı tərəfindən maliyyələşdirilən "Lerik şəhərinin su təchizatının yenidən qurulması və kanalizasiya sisteminin yaradılması" layihəsi çərçivəsində 19,6 km-lik Şonayçola-Lerik magistral su xətti çəkilmiş, 30,5 km-lik şəhərdaxili və məhəllədaxili su şəbəkəsi quraşdırılmış, 40,2 km-lik kanalizasiya şəbəkəsi, su təmizləyici və çirkab su təmizləyici qurğuları tikilmişdir. Bir ədəd 5 yüz kub.m-lik, bir ədəd 4 yüz kub.m-lik, 1 ədəd isə 1 yüz kub.m-liq məhəllədaxili içməli su anbarları, 1 ədəd 5 yüz kub.m-lik əsas bəsləyici su anbarı, Nisli yardımçı nasos stansiyası, 3 ədəd çirkab su nasos stansiyası inşa edilmişdir. Rayondakı su təmizləyici və çirkab su təmizləyici qurğular "SKADA" proqramı ilə idarə olunur.

Ötən dövr ərzində Mastayıl-Lerik alternativ su xəttinin və Siyov kəndinə su çəkilişi başa çatdırılmış, Zövnə, Zəriküməco və Kələxan kəndlərində artezian quyuları qazılmış, Piran kəndinə 3,5 kilometr məsafədən su xətti çəkilmişdir. Eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə rayonun Şingədulan, Molalan, Sors və Geskon kəndlərinə su xətti çəkilmiş, kəndlərin küçələrində bulaqlar quraşdırılmışdır. Hazırda, Cəngəmiran və Züvüc kəndlərinə suyun verilməsi ilə bağlı tikinti işləri aparılır. Eləcə də, torpaqların su təminatının yaxşılaşdırılması üçün meliorasiya-irriqasiya işlərinin

həyata keçirilməsi məqsədilə 2019-cu ildə Zövnə və Zərigümaco kəndlərində, 2020-ci ildə isə Kələxan kəndində artezian quyuları qazılmışdır.

***Rabitə xidmətlərinin*** keyfiyyətinin yaxşılaşdırılması və genişzolaqlı internet xidmətlərinin əhatə dairəsinin artırılması məqsədilə Cənub regional filialının Lerik şöbəsinin telefon şəbəkəsinin montaj tutumu 64 nömrə, internet şəbəkəsinin tutumu isə 562 port artırılmışdır. İstifadəçilərə ayrılmış xətlər üzrə 0,35 km uzunluğunda fiber optik kabel çəkilmiş, Brkandul və Hamarmeşə kənd EATS-lərinin montaj tutumu 16 nömrə genişləndirilmişdir. Rayonun bütün yaşayış məntəqələrinin sürətli internet xətti ilə təmin edilməsi işlərinin 2024-cü ildə başa çatdırılması nəzərdə tutulmuşdur.

Rayonda bütün mobil şəbəkə stansiyaları fəaliyyət göstərir. Conu və Bürsülüm kənd İƏD-in bir neçə kəndi istisna olmaqla rayonun bütün yaşayış məntəqələrində telefon şəbəkəsi normal işləyir.

Televiziya yayımının təşkili və keyfiyyətinin yaxşılaşdırılması məqsədilə Lerik Radio-Televiziya Yayımı Stansiyasında 3500 Vt-lıq TEX-3500 RVR Elektronika markalı FM verici və 1x4 konfiqurasiyalı dipol antena və 7/8 ölçüdə fider kabeli quraşdırılmışdır.

Rayonda ***nəqliyyat infrastrukturunun*** keyfiyyətinin yaxşılaşdırılması məqsədi ilə AAYDA-nın sifarişi ilə 56 km-lik Lənkəran – Lerik və 22 km-lik Lerik – Şinəbənd – Orand – Nuravud – Zərdəbərə avtomobil yolu inşa edilmiş, 2,5 km-lik Blaband – Monidigah və 1,5 km-lik Lüləkəran avtomobil yoluna asfalt döşənmişdir. Bundan əlavə, ötən dövr ərzində rayonda 26,5 km-lik Lerik-Qosmalıan-Kəlvəz, 36 km-lik Noda-Şingədulan-Xanəgah, 27 km-lik Piran-Hamarat-Vıjaker avtomobil yolları çəkilərək istifadəyə verilmişdir.




Ümumilikdə rayonun 36 kəndinə gedən avtomobil yolları asfalt örtüklüdür ki, bu da ümumi kəndlərin 22,4%-ni təşkil edir.

Rayon üzrə 2223,65 km-lik 1791 ədəd yol vardır. Bu yollardan 36 km-i respublika əhəmiyyətli, 29 km-i şəhərdaxili, 469 km-i yerli əhəmiyyətli, 799 km-i bələdiyyə, 890 km-i isə sahə avtomobil yollarıdır. Rayon üzrə mövcud olan avtomobil yolunun 6,7 %-i asfalt-beton, 11,7 %-i çınqıl, 81,6 %-i isə torpaq örtüklüdür. Eyni zamanda, şəhər daxili yolların ümumi uzunluğu 29,15 km-dir. Burada yollarının 95%-i asfalt örtükülüdür. Digər küçə və dalanların tam asfaltlaşdırılması üçün işlər davam etdirilir.

***Sosial infrastruktur (elm, təhsil və səhiyyə)***

Lerik rayonunda 106 ümumtəhsil müəssisəsi fəaliyyət göstərir. Onlardan 38-i tam orta məktəb, 46-sı ümumi orta məktəb və 22-si ibtidai məktəblərdir. Bundan əlavə, rayonda 13

məktəbədəqədər təhsil müəssisəsi və 1 peşə təhsili müəssisəsi fəaliyyət göstərir. Ümumi savadlılıq səviyyəsi 97,2% təşkil edir. Məktəb və məktəbəqədər təhsil müəssisələrində ümumilikdə 1297 nəfər müəllim və pedaqoji işçilər fəaliyyət göstərir. Məktəblərdə 6744 nəfər şagird təhsil alır. 2003-2021-ci illər ərzində rayonda 6384 şagird yerlik 49 məktəb, o cümlədən Heydər Əliyev Fondunun hesabına 870 şagird yerlik 4 yeni məktəb, hər biri 35 yerlik olmaqla 3 məktəbəqədər müəssisə üçün bina, həmçinin Heydər Əliyev Fondunun təşəbbüsü ilə Lerik şəhərində 100 yerlik uşaq bağçası tikilib istifadəyə verilmişdir.

Hazırda, rayonun ayrı-ayrı kəndlərində 13 yeni məktəb binasının tikintisi, şəhərin küçə və meydanlarında tikinti-abadlıq işləri sürətlə davam etdirilir.

***Səhiyyə*** sahəsində aparılan islahatlarla bağlı rayonda bir neçə xəstəxana, həkim məntəqəsi ləğv edilmiş və onların bazasında yeniləri yaradılmışdır. Hazırda rayonda əhaliyə ambulator və stasionar tibbi yardım göstərən 80 çarpayılıq rayon mərkəzi xəstəxanası, 6 ailə sağlamlıq mərkəzi, 34 tibb məntəqəsi, 19 həkim məntəqəsi mövcuddur ki, burada 40 nəfər həkim və 151 orta tibb işçisi çalışır. Rayon mərkəzi xəstəxanası və uşaq şöbəsi, Qosmalıan, Peştətük, Əliabad kənd xəstəxanaları, Vizəzəmin həkim məntəqəsi əsaslı təmir edilmiş, Şingədulan, Cəngəmiran, Brkandul, Barzavu, Blaband, Piran kənd həkim məntəqələri üçün yeni binalar inşa edilmişdir. Eləcə də, Yaponiya Dövlətinin maliyyə dəstəyi ilə Pirasora və Conu kəndlərində, Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişaf Agentliyinin (USAİD) maliyyə və İqtisadiyyat Nazirliyinin dəstəyi ilə Cəngəmiran kəndində həkim məntəqələri inşa edilmişdir.

***Ətraf mühit, ekoloji vəziyyət və iqlim dəyişkənliyi***

Rayonun özünəməxsus flora və faunasının qorunması məqsədilə 1969-cu ildə Zuvand ərazisində "Zuvand dövlət Təbiət yasaqlığı" (sahəsi 15000 ha) və 2009-cu ildə Rvarud kəndi ərazisində “Rvarud Dövlət Təbiət Yasaqlığı” (sahəsi 550 ha) yaradılmışdır. Aparılmış tətqiqatlar zamanı məlum olmuşdur ki, həyata keçirilən tədbirlər nəticəsində son illər Lerik rayonunda ayı ailələrinin sayı çoxalmışdır. Ayılar əsasən rayonun Qosmalıan, Kələxan, Mistan və Orand kənd inzibati ərazi dairələrində müşahidə edilmişdir. Bundan əlavə, meşə zonasında çöl xoruzu, kəklik, qaban və digər heyvan növlərinin sayında çoxalma müşahidə edilmişdir.

Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən 2017-ci ildən başlayaraq 2024-cü ilədək hər ildə orta hesabla 80 hektar, ümumilikdə, cəmi 480 hektar yeni meyvə bağlarının, rayonun təbiətinə xas olan digər ağacların (palıd, qızılgöz, vələs və s.) hesabına meşə sahələrinin (aqro meşə) salınması planlaşdırılmışdır. Lənkəran Meşə Mühafizəsi və Bərpası Müəssisəsi tərəfindən ötən müddət ərzində 500 hektara yaxın sahədə bağ və açıq talalarda meşə zolaqları salmışdır.

Rayonda məişət tullantılarının yığımı və utilizasiyası işləri də davam etdirilir. Belə ki, Lerik şəhərinin yaxınlığında, Lerik-Hıramo avtomobil yolunun 1 km-də yerləşən torpaq sahəsində (1 ha) məişət tullantılarının yığım yeri mövcuddur. Eyni zamanda, hazırda Lerik-Lənkəran avtomobil yolunun 3-cü km-də yerləşən torpaq sahəsində (2 ha) məişət tullantılarının yığılması üçün yeni zibilxana inşa edilir.

Qlobal ***iqlim dəyişmələrinin*** təsirləri (müsbətyönümlü) Lerik rayonunda da özünü biruzə verməkdədir. Belə ki, şiddətli küləkli günlərin sayının (son onilliklər ərzində rayonda şiddətli küləkli günlərin sayı iki dəfəyədək azalıb) azalması kənd təsərrüfatının inkişafına müsbət təsir göstərməklə yanaşı külək enerjisindən istifadə potensialının artırılmasına şərait

yaradır. İqlim dəyişmələrinin təsiri nəticəsində günəşli günlərin sayında (rayonda son 20 il ərzində günəşli günlərin sayı 11% artmışdır) artım müşahidə olunur ki, bu da günəş enerjisindən istifadənin potensialını artırır.

## 2.3. Mövcud çağırışlar

Lerik rayonunun Diaqnostik təhlilinin nəticələrinə nəzər saldıqda, son illər əldə olunan nailiyyətlərə baxmayaraq rayonda sosial-iqtisadi, infrastruktur və ekoloji sahələrdə mövcud olan problemlər əsas çağırışlar kimi qarşıya çıxır. Belə ki, rayonun inkişaf dinamikasının sürətləndirilməsi, prioritet sahələr üzrə müəyyən olunmuş əsas çağırışlar, onların vaxtında və çevik həll olunmasını şərtləndirir.

İlkin olaraq qeyd edilməlidir ki, rayonun ucqar və əlverişsiz coğrafi şəraitdə yerləşməsi, burada mövcud olan təbii-iqtisadi potensialdan istifadə imkanlarını məhdudlaşdırır, o cümlədən rayonun üstünlüklərinin reallaşdırılmasını, müasir istehsal və xidmət sahələrinin yaradılmasını və bunun üçün investisiyaların cəlbini nisbətən çətinləşdirir.

***Kənd təsərrüfatı*** sahəsi rayon iqtisadiyyatının əsasını (ÜMB-nın 60%-i) təşkil edir və əhalinin əsas məşğulliyyəti bu sahənin inkişafına çox bağlıdır. Rayonda kənd təsərrüfatının inkişafına mənfi təsir göstərən amillər kimi, kənd təsərrüfatının ekstensiv inkişafını, aqrotexniki və aqrokimyəvi xidmətlərin (həmçinin təchizatının) zəifliyini, bitkiçilikdə məhsuldar toxum sortları ilə təminatın yetərli səviyyədə olmamasını, suvarma suyunun çatışmazlığını, ərazilərdə müasir texnika və texnologiyaların (xüsusilə dağlıq relyefə uyğun) istifadə olunmamasını, heyvandarlıqda yem tədarükünün zəifliyini, mövcud meşə qida məhsullarının və dərman bitkilərinin potensialından istifadənin zəifliyi, kənd yerlərində maliyyə resurlarına çıxışın məhdudluğunu, kənd təsərrüfatı məhsullarının satış bazarlarının olmamasını və müvafiq sahədə ixtisaslı kadrların azlığını göstərmək olar.

Lerik rayonunda aqrotexniki və aqrokimyəvi xidmətlərə əlçatanlılıq zəifdir (regionda Aqroservis ASC-nin nümayəndəliyi yalnız Cəlilabad rayonunda yerləşir), eləcə də təchizat məntəqələrinin azlığı, sahə üzrə fermerlərin maarifləndirilməsinə ehtiyacın olması əsas problemlərdəndir. Rayonda mineral gübrələrə olan minimal tələbat 600 ton, pestisidlərə isə 500 kq təşkil edir. İl ərzində faktiki olaraq mineral gübrələrlə təchizat 250-300 ton təşkil etdiyi halda, pestisidlər üçün bu rəqəm 300-350 kiloqramdır. Rayonun iqlim şəraiti ilə əlaqədar olaraq herbisidlərə olan tələbat azdır.

*Əlavə olaraq 300 ton mineral gübrənin və 150 kq pestisidlərin təchizatına, eləcə də, Lerik şəhəri, Piran, Şingədulan, Çayrud, Qosmalıan kəndlərində aqrokimyəvi maddələrin əlavə səyyar təchizat məntəqələrinin yaradılmasına ehtiyac vardır.*

Hazırda rayonda 5300-ə yaxın fermer fəaliyyət göstərir. Onların əkin sahələrində gübrələmə, suvarma, kultivasiya, texnikadan düzgün və səmərəli istifadə, xəstəlik və zərərvericilərə qarşı mübarizənin təşkili, aqrotexniki qaydalara riayət edilməklə becərilmənin aparılması, yığımın təşkili və s. istiqamətlərdə mariflәndirmə tədbirlərinə mütəmadi olaraq iştiraklarına ehtiyac vardır.

*Bu məqsədlə 3 minə yaxın fermerin müntəzəm şəkildə maarifləndirmə tədbirlərinə cəlb olunmasına ehtiyac duyulur.*

Rayonda, fermerlərin keyfiyyətli toxum sortlarına və meyvə tinglərinə tələbatı yüksəkdir. Araşdırmalar zamanı məlum olmuşdur ki, Lerik rayonu salınmış alma bağlarının sahəsinə (252,6 ha) görə regionda ilk yerdə qərarlaşsa da, məhsularlığa görə (17,9 sent/ha)

sonuncu pillədədir. Belə ki, region üzrə salınmış alma bağlarının sahəsi 474,7 ha, orta məhsuldarlıq isə 38,8 sent/hektardır. Eləcə də, kartof üzrə əkin sahəsinə (1537 ha) görə rayon regionda ikinci yerdə qərarlaşsa da, məhsuldarlığa görə (145 sent/ha) üçüncü pillədədir. Müvafiq olaraq, regionda kartof üzrə əkin sahəsi 10209 ha, orta məhsuldarlıq isə 221 sent/hektardır.

*Hazırda, rayonun əsas kənd təsəsürrüfatı məhsulları olan kartof üçün 5 min ton toxuma və 13 min alma tinginə (və digər) ehtiyac vardır.*

Lerik rayonunda mövcud olan kənd-təsərrüfatı təyinatlı texnikaların sayının (212 ədəd, ondan 175-i işlək, qalanı nasaz vəziyyətdədir) qənaətbəxş olmaması bu sahəyə birbaşa mənfi təsir edən amillərdəndir. Belə ki, ərazinin xüsusi dağlıq relyefə malik olması, mövcud (standart) texnikanın tam gücü ilə işləməsinə maneəçilik törədir (misal üçün, qonşu rayonlarda kombayn gün ərzində 40-50 ha sahədə biçin işləri aparırsa, Lerik rayonunda bu rəqəm 8-10 ha ətrafındadır).

*Rayonda əkinə yararlı əlavə 4 min hektar torpaq sahəsinin növbəli əkinə cəlb edilməsindən ötrü əlavə olaraq 5 ədəd dağ kombaynı, 15 ədəd şum traktoru, 10 ədəd otbiçən aqreqat, 10 ədəd kotana və toxumsəpənə ehtiyac vardır.*

Heyvandarlıqda yem tədarükünün zəifliyi, xüsusən də yem təchizatı (satışı) məntəqələrinin qənaətbəxş səviyyədə olmaması əsas problemlərdəndir. Bu, eyni zamanda, heyvandarlıq məhsullarının istehsalına və fermerlərin gəlirlərinə birbaşa təsir göstərən amillərdəndir. Rayonda illik yem tələbatı (bütün növ yemlər) təxminən 240 min tondur və bunun 60%-ə qədəri ödənilir.

*Hazırda qeyd olunan tələbatın tam ödənilməsi üçün əlavə 90 min ton yem təchizatına ehtiyac vardır.*

Lerik rayonunda meşə qida məhsullarının potensialı olduqca yüksəkdir. Lakin kəndlərdə qeyd olunan məhsulların tədarükü məntəqələrinin olmaması, sistemli şəkildə məhsul yığımının və eləcə də satışının təşkil edilməməsi bu potensialdan maksimum istifadə etməyə imkan vermir. Araşdırmalar zamanı məlum olmuşdur ki, yemişan, qaragilə, böyürtkən, meşə əzgili, çaşır, meşə qozu, cır alma, meşə armudu, qafqaz xurması kimi meyvə və giləmeyvələrin (ayrılıqda) orta hesabla 3-20 ton, itburnu, akasiya toxumu, kəndalaş, gicitkan, kəklikotu, qantəpər kimi bitkilərin isə orta hesabla 1-3 ton arasında tədarükü mümkündür.

*Kəndlərdə meşə qida məhsullarının satışı məntəqələrinin yaradılmasına ehtiyac vardır.*

Rayonda bazar infrastrukturunun (həftəiçi və bayram günləri kortəbii şəkildə təşkil olunur) zəif inkişafı və kənd təsərrüfatı məhsullarının rayon daxili bazarının olmaması kəndlilərin becərdikləri məhsulların satışını həyata keçirməsində ciddi problemlər yaradır.

*Bu məqsədlə kənd-təsərrüfatı məhsullarının sistemli şəkildə satışı üçün rayon ərazisində həftəlik bazarların (yarmarkaların) təşkil edilməsi vacibdir.*

Rayonda son illərin statistik göstəricilərinə nəzər salsaq, ***sənaye*** sahəsində (rayon ÜMB-da dördüncü yerdədir) inkişafın olduğunu müşahidə edə bilərik. Lakin bu sahə üzrə fəaliyyət göstərən müəssisələrin sayı olduqca azdır (7 ədəd) və sahə üzrə ÜMB-nın çox hissəsi bir neçə müəssisənin istehsal gücü hesabına formalaşmaqdadır.

Lerik rayonunda kənd təsərrüfatı məhsullarının emalı müəssisələrinin (konserv zavodu, gön dəri emalı, mineral və süfrə sularının qablaşdırılması, ət, yun, süd qəbulu emalı, arıçılıq məhsullarının emalı, tikiş sexləri) olmaması, tikinti materialları sənayesinin

potensialından yetərincə istifadə edilməməsi, rayonun sənaye sahəsində müqayisəli üstünlüklərinin müəyyənləşdirilməməsi bu sahənin inkişafını yavaşladan amillərdəndir.

Rayonda tikinti materialları (mərmər, əhəng, gil, bazalt, sement) ehtiyyatları mövcud olsada bu potensialdan yetərincə istifadə edilmir. Səbəblər kimi, istismar üçün müvafiq icazələrin alınmasında yaranan çətinliklər, yol infrastrukturunun qənaətbəxş olmaması, eləcə də, rayon ilə iri şəhərlər arasında məsafənin uzaqlığı (logistika) göstərmək olar.

Rayonda daha çox ixtisaslaşmış kənd təsərrüfatı məhsullarından olan kartof və alma (eləcə də nadir və endemik dərman bitkiləri) əsasən əlavə dəyər qatılmadan birbaşa istehlak üçün satışa çıxarılır. Aparılan araşdırmalara (statistik, dəyər zəncirinin təhlili, müzakirə görüşləri) əsasən demək olar ki, maraqlı subyektəri prosesə cəlb etməklə bu məhsulların ilkin emalı müəssisələrinin (kiçik ölçülü) yaradılmasına nail oluna bilər.

***Sahibkarlığın inkişafı*** sahəsində rayonda son illərdə ciddi dəyişikliklər baş verməməmişdir. Buna əsas səbələr kimi, rayonda sahibkarlıq subyektlərinin bizneslərinin inkişafına və yeni sahibkarlıq subyektlərinin yaradılmasına dəstəyin yetərli olmaması, biznes mühitinin əlverişliliyinin artırılmasına və bu istiqamətdə maarifləndirmə işlərinin gücləndirilməsinə ehtiyacın olması, bazar infrastrukturunun inkişafının zəifliyi, sahibkarlıq subyektlərinin güzəştli kredit, sığorta, zəmanət və digər dəstək mexanizmlərinə əlçatanlığının məhdud olması, eləcə də, sahibkarlara verilən kreditlərdə çətinliklərin olması, bankların sayının azlığı (rayonda cəmi 1 bank fəaliyyət göstərir), kənd yerlərində girovların qəbul edilməməsi, sahibkarlığın fəaliyyətində kreditlərin alınması barədə maarifləndirmə işlərinin yetərincə aparılmaması, sahibkarlıq biliklərinin (maliyyə, biznes, rəqəmsal) az olmasını qeyd etmək olar.

Hazırda, rayonda əhaliyə yalnız bir bank (Kapital Bank) və onun 4 bankomatı (Lerik şəhərində 2, Şingədulan kəndində 1, Piran kəndində 1) xidmət göstərir. Bu faktor, rayonda sahibkarlıq mühitinin formalaşmasına mənfi təsir göstərməklə yanaşı, həmdə yerli sakinlərin (əmək haqqı, pensiya və müavinət alan sakinlərin 90%-dən çox hissəsi) bank xidmətlərinə çıxış imkanlarını olduqca məhdudlaşdırır.

*Rayonda bank sisteminin mövcud vəziyyətini nəzərə alaraq, KOS-ların güzəştli maliyyə-kredit məhsullarına çıxışının asanlaşdırılması üçün mobil və onlayn tətbiqetmələrin (məs: internet bankçılıq) istifadəsinin əhatə dairəsini genişləndirilməsi üçün maarifləndirmə tədbirlərinin görülməsinə və ehtiyaca uyğun şəkildə əlavə bankomatların quraşdırılmasına ehtiyac vardır.*

Rayon mərkəzində daimi fəaliyyət göstərən bazar yoxdur. Əsas səbəb kimi bazar tikiləcək yerin məhdudluğu, eləcə də kəndlilər, fermerlər və sahibkarlar arasında vahid bazarın yaradılması və maraqlı tərəflərin ora yönəldilməsi ilə bağlı təşviqat tədbirlərinin qənaətbəxş səviyyədə olmamasını göstərmək olar.

Rayonda ***turizm*** sektorunun inkişaf dinamikasına nəzər saldıqda son illər ərzində sahə üzrə müəyyən canlanmanın olduğuna şahid oluruq. Lakin, mehmanxana və mehmanxana tipli müəssisələrin, mövcud nömrələrin, eləcə də onların birdəfəlik tutumlarının sayında dəyişikliklərin baş verməməsi (stabillik) bu sahə üzrə potensialın artırılmasına ciddi maneələr törədir. Eləcə də, turizm marketinqinin zəif olması, xidmət sektorunda (otel, kafe, market və s.) keyfiyyətin aşağı olması, xidmət mədəniyyətinin və gigyena şəraitinin qənaətbxş olmaması, turizm potensialından zəif istifadə edilməsi, turizm məlumat bürolarının və turistik xəritələrinin olmaması, ixtisaslı kadr çatışmazlığı,

infrastrukturun zəifliyi (obyektlərdə kanalizasiya sistemi) kimi məsələlər bu sahənin inkişafına əngəl törədən amillərdəndir.

Lerik rayonu mineral su və təbii rekreasiya ehtiyatları ilə zəngindir. Lakin turizm-istirahət obyektlərinin rayon daxilində qeyri-bərabər paylanması (əsasən Lənkəran-Lerik magistral yolunun üstündə cəmləşib), bura gələn turistlərin mərkəzə, eləcə də, rayonun digər turizm potensialına malik kəndlərinə (Zuvand, Qosmalıan, Kələxan, Əvilə, Kəlvəz) az səfərlər etmələrinə səbəb olur.

*Bu məqsədlə rayonda turizmin inkişafı üçün müvafiq potensiala malik ərazilərdə Turizm-istirahət zonalarının yaradılmasına (məs: Bülüdül kəndində narzan tərkibli kükürdlü su mənbəyi var) ehtiyac vardır.*

Lerik rayonunda gündəlik və ya mövsümi olaraq kirayə verilən şəxsi evlər (homestay) rayon üzrə yataq tutumunun böyük hissəsini təşkil edir. Bu evlərin bir çoxu turizm üçün tələb olunan şərtlərə cavab vermir və əksər evlərin həm fiziki, həm də gigiyenik şəraiti qənaətbəxş deyil. Eyni zamanda qeyd olunan evlərdən biri istisna olmaqla, digərləri onlayn (turizm platformaları) icarəyə verilməməkdədir. Bu da, evlərin daha geniş turist auditoriyasına çıxışı imkanlarını azaldır və əhalinin maddi vəziyyətinə qismən mənfi təsir göstərir.

Əhalinin ***məşğulluq*** səviyyəsinə nəzər saldıqda, digər rayonlara xas problemlərin olduğunun müşahidə etmək mümkündür. Belə ki, rayonda ümumilikdə 3562 nəfər işsiz əhali vardır. İşsiz əhalinin sayı şəhər yerlərində 487 nəfər, kənd yerlərində 3075 nəfər olmuşdur ki, bu da Lerik rayonunu Lənkəran-Astara regionu üzrə ikinci yerdə qərarlaşdırır.

Rayon əmək ehtiyatları ilə zəngindir. Lakin müəyyən problemlər səbəbilə əmək ehtiyatlarından istifadə səviyyəsi aşağıdır. Bu problemlərə əsasən kadrların bəzilərinin öz ixtisası üzrə işləməməsi, rayonda layiqli iş yerlərinin azlığı, işsizlik səviyyəsinin yuxarı olması, gənclərin peşəyönümlü tədrisə yönəldilməməsi daxildir. Eyni zamanda, Lerikdə iş yerlərinin azlığı və davamlı gəlir əldə etmə imkanına inamın olmaması potensiallı gənclərin ölkədaxili böyük şəhərlərə və xarici ölkələrə axın etməsinə səbəb olur.

Lerik rayonunda xalq sənətkarlığının ənənəvi növlərinin (xalçaçılıq, toxuculuq, tikmə) inkişafı üçün əlverişli şərait vardır. Lakin son illərdə qeyd olunan sahələrin diqqətdən kənar qalması, gənclərin və qadınların bu sahəyə maraqlarının azalması, eləcə də təşviqatın və gəlirliliyin az olması bu potensialdan maksimum istifadə imkanlarını azaltmaqdadır.

*Xalq sənətkarlığının ənənəvi növlərinin və satış məqsədli yerli sənətkarlıq məhsullarının (Pirəsorə, Divağac, Mondigah kəndlərdində fərdi qaydada kiçik miqyaslı işlər görülür) hazırlanmasına dəstəyin artırılması vacibdir.*

Rayonun 162 yaşayış məntəqəsinin hamısı ***elektrik enerjisi*** ilə təmin edilmişdir. Lakin uzun illər əsaslı təmir aparılmadan istismar edilən, keçən əsrin 60-cı illərində inşa olunan elektrik hava xətləri payız və qış aylarında əhaliyə enerjinin verilişində ciddi çətinliklər yaratmaqdadır.

Rayonda ***qazlaşma*** səviyyəsinin aşağı olmasının əsas səbələri rayonun yerləşdiyi əlverişsiz-coğrafi mövqeyi və buna müvafiq olaraq əhalinin bütün yaşayış məntəqələri üzrə qeyri-bərabər məskunlaşmasıdır. Rayon üzrə ümumilikdə 162 yaşayış məntəqəsindən (12003 yaşayış evi) 102-si (6743 ev) hələdə qazlaşdırılmamışdır ki bu da rayonun qazlaşdırılmasının 37% faiz ətrafında olduğunu göstərir. Qazlaşdırılmayan (63%) yaşayış məntəqələrindən 33-nün qazlaşdırılması iqtisadi cəhətdən səmərəsiz hesab edildiyindən onların yaxın gələcəkdə qazlaşdırılması nəzərdə tutulmamışdır.

Rayonun ***içməli su*** ilə bağlı problemləri hələ də qalmaqdadır. Belə ki, rayon üzrə mövcud olan 162 yaşayış məntəqəsinin 33-də yay aylarında ciddi su qıtlığı yaranır. Bu da rayon əhalisinin 35,8%-ni, yaşayış məntəqələrinin isə 20,3%-ni təşkil edir. Qeyd olunan 33 kənddə yay aylarında bulaqlarda suyun azalması səbəbindən suya tələbat artır. Sakinlər suyu daha uzaq məsafələrdən yük heyvanları və digər nəqliyyat növlərindən istifədə etməklə daşıyırlar. Ümumilikdə 8019 ailənin (72098 nəfər və ya 84,7% əhali) yaşadığı kəndlərin əhalisi bulaq sularından, qazdırdıqları quyu sularından (artezian quyuları) və yaxınlıqdakı çay sularından istifadə edirlər.

***Suvarma*** sahəsində də bir sıra problemlər qalmaqdadır. Belə ki, rayonun əkin sahələri əsasən dəmyə şəraitində becərilir. Qosmalian, Kələxan, Pirasora, Orand, Çayrud, Mistan, Monidigah kənd inzibati ərazi dairələrində yetişdirilən məhsulların yetişdirilməsində suvarma metodundan istifadə edilsə də, Çayrud, Rvarud, Pirasora, Qosmalian, Kəlvəz, Göydərə və digər yaşayış məntəqələrində əhali tərəfindən tikinti norma və qaydalarına əməl edilmədən inşa edilən sututarlardan və göllərdən istifadə edilir.

***Nəqliyyat*** infrastrukturunun, xüsusilə kəndlərarası yolların yenidən qurulmasına ciddi ehtiyac vardır. Lerik rayonunun avtomobil yollarının əsasən torpaq örtüklü (rayonda mövcud olan avtomobil yollarının 6,7 %-i asfalt-beton, 11,7 %-i çınqıl, 81,6 %-i isə torpaq örtüklüdür) olması rayonun sosial-iqtisadi sahələrin inkişafına birbaşa və dolayısı yolla mənfi təsir göstərməkdədir.

Ümumilikdə rayonun 36 kəndinə gedən avtomobil yolları asfalt örtüklüdür. Bu da ümumi kəndlərin 22,4%-ni təşkil edir. Qalan 125 yaşayış məntəqəsinə və ya ümumi kəndlərin 77,6%-nə gedən yollarının yenidən qurulmasına (asfaltlaşmasına) ehtiyac vardır.

Rayon mərkəzində, eləcə də rayon mərkəzi ilə kəndlər və kəndlərarası ictimai nəqliyyat sistemi qurulmamış, müvafiq istiqamətlər üzrə marşrutlar müəyyən edilməmişdir.

Eləcə də Bakı və Lənkəran şəhərlərindən Lerik rayonunun mərkəzinə etibarlı nəqliyyat marşrutlarının təşkil edilməməsi bura axın edən turistlərin sayına birbaşa mənfi təsir göstərən amillərdəndir.

*Rayonda sistemli marşrut xətləri qovşağının yaradılması üçün avtovağzalın inşası vacibdir.*

***Rabitə və informasiya ximətləri*** üzrə son illərdə artım müşahidə olunsada sahəvi problemlər hələ də qalmaqdadır. Belə ki, rayon üzrə 33 yaşayış məntəqəsi, Bürüsülüm və Tülü-Conu kənd inzibati ərazi dairəsindəki 16 yaşayış məntəqəsinin heç biri telefonlaşmamışdır.

Rabitə xətlərindəki ağac dirəklərin çoxu çürümüş, naqillər bir qismi elektrik dirəklərinə bağlanmışdır. Rayonda internetin sürətində də ciddi problemlər vardır. Hazırda 2146 ailə təsərrüfatının olduğu 43 yaşayış məntəqəsinin sürətli internet xəttinə çıxışı yoxdur. EATS-də generatorlar, qida qurğuları-akkumulyator çatışmadığından elektrik enerjisi kəsildikdə ərazilərlə rabitə kəsilir.

Rayonun ***elm və təhsil sahəsində*** vəziyyət qənaətbəxş olsa da (rayon üzrə ümumi təhsil səviyyəsi 97,2% təşkil edir) infrastrukturun yenilənməsi və ixtisaslı kadrların çatışmazlığı kimi çağırışlar hələ də qalmaqdadır. Belə ki, rayonun əhalisi az məskunlaşmış ümumilikdə 66 yaşayış məntəqəsində (13700 nəfər) məktəb binası yoxdur. Qeyd olunan ərazilərdə yaşayan şagirdlər ən yaxın məktəbə qədər orta hesabla 3 km, bəziləri isə 20 km məsafə qət edirlər.

*Təhsil müəssisəsi olmayan kəndlərdə şagirdlərin daşınması üçün müvafiq avtobusların təşkilinə ehtiyac vardır.*

Eləcə də, rayonda ümumilikdə 13 məktəbəqədər təhsil müəssisəsinin (2-si şəhər mərkəzində, 11-i kəndlərdə) olması əhalinin ilkin təhsilə çıxış imkanlarını azaldır.

*Cəngəmiran, Lüləkəran, Soru və Vistən kənd orta məktəblərinin Lerik rayon təhsil şöbəsi üçün yeni inzibati binanın tikintisinə, Livədirqə, Züvüc, Şingədulan, Vizəzəmin, Vistən, Nücü kəndlərində yeni uşaq bağçalarının yaradılmasına ehtiyac vardır.*

Rayonunun ixtisaslı kadrlarla təmin edilməsinə cavabdehlik daşıyan peşə məktəbində vəziyyət acınacaqlıdır. Tədris binası iki korpusdan ibarət olan müəssisənin bir korpusu (keçən əsrin 30-cu illərində inşa edilib) tam qəzalı vəziyyətə düşdüyündən burada tədrisin aparılması dayandırılmışdır. Digər bina isə müasir tələblərə cavab vermir. Rayonda yeni xidmət sahələrinə (turizm, iaşə, kənd təsərrüfatı texnikalarının idarə edilməsi, maşın və texnikaların təmiri) marağın artmasını nəzərə alaraq peşə məktəbi üçün yeni binanın inşa edilməsinə (və ya digər uyğunlaşdırılmış binaya köçürülməsinə) ehtiyac vardır.

*Hazırda rayon üzrə 399 fənn müəlliminə (5-i şəhərdə, 394-ü kəndlərdə) ehtiyac vardır.*

Əksər rayonlarda olduğu kimi Lerik rayonunda da ***səhiyyə*** sahəsində müəyyən çatışmazlıqlar mövcuddur. Əsas problemlər kimi, ixtisaslı həkim çatışmazlığı, tibbi xidmətlərin qənaətbəxş olmaması, çarpayı sayının azlığı, əmək haqlarının aşağı olmasını qeyd etmək olar. Lerik rayonunda əhalinin hər on min nəfərinə düşən həkimlərin sayı 4,4 nəfər, orta tibb heyətinin sayı 18 nəfər, xəstəxana çarpayılarının sayı isə 9,2 ədəd olmuşdur. Müqayisə üçün Lənkəran-Astara iqtisadi rayonunda bu göstəricilər müvafiq olaraq 8,8 nəfər, 28,7 nəfər və 14,8 ədəd olmuşdur ki, bu da Lerik rayonunun bütün göstəricilərinin regionun orta göstəricilərindən aşağı olduğunu göstərir. Rayonda xəstəxana çarpayılarının sayı son 10 ildə 2 dəfə azalmışdır

Gigiyena-Epidemiologiya Mərkəzi üçün yeni binanın inşa edilməsi, Daster, Boykəndil, Lərmərud, Tikəband, Livədirqə, Nücü, Nuravud, Soru və Haftoni kəndlərində həkim məntəqələrinin, Əliabad, Peştətük, Züvüç və Veri kənd xəstəxanaları üçün yeni binaların inşa edilməsi, eləcə də, mövcud tibb müəssisələrinin maddi-texniki bazalarının gücləndirilməsi əsas prioritet məsələlərdir.

*Hazırda rayonda 67 ixtisaslı həkimə və 120 tibb işçisinə ciddi ehtiyac vardır.*

Lerik kimi dağlıq rayonlar ətraf mühitə, xüsusən də iqlim dəyişikliklərinə həssasdır. Ətraf mühitə antropogen müdaxilələrin getdikcə artması rayonun ***ekoloji vəziyyətinin*** pisləşməsinə birbaşa təsirini göstərir. Belə ki, obyektiv səbəblərdən meşələrin məhv edilməsi (qazın olmaması), əhali tərəfindən yanğın təhlükəsizliyinə əməl olunmaması, tullantıların (zibillərin) vaxtında yığılıb zərərsizləşdirilməməsi, kəndlərdə bütün tullantıların çaylara atılması, tullantıların emalı və məişət tullantılarının çeşidlənməsi və utilizasiyası məntəqələrinin az olması, kanalizasiya sisteminin təkmil olmaması, ekologiya ilə bağlı maarifləndirici tədbirlərin və yol kənarlarında ətraf mühitin təmiz saxlanılması ilə bağlı lövhələrin olmaması, tullantı qutularının azlığı, ekoloji menecmentin olmaması kimi amillər vəziyyətin daha da dərinləşməsinə səbəb olur.

Lerik şəhərində kanalizasiya sistemi mövcud olsa da, kəndlərin heç birində kanalizasiya sistemi yoxdur. Çaylara yaxın kəndlərdə tullantı suları çaya axıdılır. Digər kəndlərdə zibil quyularından istifadə olunur. Lerik-Lənkəran yolundakı turizm obyektlərində eyni mənzərəni görmək mümkündür. Onların bəziləri septik çənlərdən istifadə etdiyi halda, bir çoxları, xüsusən də gündəlik olanlar tullantı sularını Lənkəran çayına axıtmaqdadır.

Təbii baş verən ***iqlim dəyişiklikləri*** də rayonun ekoloji mühitinin pozulmasına birbaşa təsirini göstərir. Son illər rayonun Sors, Molalan, Züvüc, Lərmərud, Vizəzəmin, Veri Əliabadı, Ordahal  və digər yaşayış məntəqələrində baş verən torpaq sürüşmələri nəticəsində vətəndaşlara məxsus yaşayış evlərinə ciddi ziyan dəymiş, evlər qəzalı vəziyyətə düşmüşdür. Bundan başqa vətəndaşların pay torpaqlarında da baş verən torpaq sürüşmələri əkinə yararlı torpaqlarda əkin işlərinin aparılmasında çətinliklər yartmışdır. Cari ildə gəmiricilərin kütləvi yayılması nəticəsində taxıl sahələrinə ziyan dəymiş, bu da son nəticədə əhalinin gəlirlərinə mənfi təsir göstərmişdir. Qeyd olunan məsələlərin həlli istiqamətində vaxtında və çevik addımların atılması labüddür.

## 2.4. GZİT təhlili

Mövcud vəziyyətin təhlili, hədəflərin və prioritet istiqamətlərin müəyyənləşdirilməsində GZİT (Güclü və Zəif tərəflər, İmkanlar və Təhlükələr) təhlilindən istifadə edilmişdir. Lerik rayonunda mövcud sosial-iqtisadi və ekoloji vəziyyətin GZİT təhlilinin nəticələri aşağıdakı kimidir:

### GÜCLÜ TƏRƏFLƏR

- zəngin təbii-coğrafi mühiti və relyefi;
- turizm (o cümlədən ekoturizm, aqroturizm, ev turizmi) potensialının mövcudluğu;
- meşələrin, o cümlədən relikt, endemik (dəmirağac) bitkilərin olması;
- saf və toxunulmamış təbiətin olması;
- heyvandarlığın, o cümlədən arıçılığın inkişafı üçün əlverişli təbii şəraitin olması;
- zəngin təbii resursların (o cümlədən qranit, daş kömür ehtiyatları) olması;
- əmək ehtiyatlarının çoxluğu;
- meşə qida məhsulları və yabanı dərman bitkilərinin yetişməsi;
- mineral su mənbələrinin mövcudluğu;
- zəngin milli mətbəx;
- qədim tarixi-mədəniyyət abidələrinin mövcudluğu;
- uzunömürlülər diyarı olması;
- əhalinin vətənpərvər və zəhmətkeş olması;
- azonallıq.

### ZƏİF TƏRƏFLƏR

- kənd təsərrüfatına yararlı torpaq ehtiyatlarının məhdud olması;
- əlverişsiz coğrafi şərait (ucqar dağlıq ərazi);
- suvarma suyunun çatışmazlığı;
- loqistikanın mürəkkəbliyi, bazarlara çıxışın çətinliyi;
- məhsulların rəqabətqabiliyyətliliyinin aşağı olması;
- kənd təsərrüfatı məhsullarının emalı müəssisələrinin olmaması;
- təbii-iqtisadi, o cümlədən turizm potensialından istifadənin zəifliyi;
- yem və toxum təminatında çətinliklər;
- investisiya qoyuluşunun yetərli olmaması;
- istehsal, sosial və bazar infrastrukturu sahələrinin inkişafının qənaətbəxş olmaması;
- layiqli iş yerlərinin azlığı;
- gənclərin və ixtisaslı kadrların iri şəhərlərə və xarici ölkələrə miqrasiyası
- sosial xidmət (təhsil, səhiyyə, mədəniyyət və s.) sahələrinin zəif inkişafı;
- ətraf mühitin çirklənməsinin artması;
- meşələrin qırılması (qazın olmaması ilə əlaqədar);
- kanalizasiya sisteminin təkmil olmaması;
- ekoloji menecmentin yetərsizliyi;
- zəif təbliğat/təşviq.

### İMKANLAR

- regionların və kənd yerlərinin inkişafına geniş dövlət dəstəyinin (subsidiya, vergi güzəştləri və s.) olması;
- regionların inkişafı üzrə dövlət proqramlarının olması;
- dövlət, qeyri-hökümət və beynəlxalq donor və inkişaf təşkilatları və institutlarının rayonda müvafiq layihələrin həyata keçirilməsi prosesinə cəlb edilməsi imkanları;
- dövlət-özəl tərəfdaşlığı üzrə imkanların olması;
- xarici və ölkənin digər regionlardan yerli və xarici investiyaların cəlb edilməsi imkanları;
- ixrac imkanlarının olması;
- ölkədə və dünyada mövcud olan qabaqcıl xarici təcrübələrin öyrənilməsi və tətbiqi imkanları;
- müştərək sahibkarlığın inkişafı;
- texnoloji inkişafın stimullaşdırılması üçün mexanizmlərin mövcudluğu;
- kənd təsərrüfatında innovasiyaların dəstəklənməsi mexanizmlərinin olması;
- yaxın məsafədə hava limanının və dəmiryolunun olması;
- beynəlxalq nəqliyyat dəhlizinin yaxınlığında yerləşməsi

### TƏHLÜKƏLƏR

- iqlim dəyişiklikləri nəticəsində su ehtiyatlarının azalması, quraqlığın və səhralaşmanın artması;
- torpağın münbitliyinin azalması;
- təbii fəlakətlərin intensivləşməsi;
- iqtisadi böhran;
- dövlət dəstəyinin azalması;
- maliyyə resurslarına çıxışın məhdudluğu;
- ucqar dağlıq rayon olduğu üçün investorların marağının az olması;
- qonşu ölkələrdən qaynaqlanan təhlükələrin artması;
- yoluxucu xəstəliklərin və ziyanvericilərin yayılması (ölkədaxili regionlardan və digər ölkələrdən);
- müharibə və beynəlxalq münaqişələrin artması;
- inflyasiyanın artması;
- xarici bazarlara çıxış imkanlarının məhdudlaşdırılması;
- zərərli vərdişlərin kənardan yayılması;

Planda “güclü tərəflər”in verdiyi üstünlük və “imkanlar”ın yaratdığı fürsətlərdən bəhrələnərək nailiyyətlərin möhkəmləndirilməsi və artırılması, “zəif tərəflər”in azaldılması, mövcud çağırışların qarşılanması və “təhlükələr”in mümkün neqativ təsirlərinin minimuma endirilməsi üçün tədbirlər nəzərdə tutulmuşdur.

## 3. PLANIN HƏDƏF GÖSTƏRİCİLƏRİ

Rayonda sosial-iqtisadi və ekoloji sahələrdə mövcud vəziyyətin diaqnostik təhlilinə və “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”-nın milli prioritetlərinə əsaslanaraq planın əhatə etdiyi dövrdə rayonun inkişafına ümumu baxış, missiya və hədəf göstəricilər aşağıdakı kimi müəyyənləşdirilmişdir:

**Ümumi baxış:** Rayonda iqtisadi dinamikanın artırılması və iqtisadiyyatın dayanıqlılığının təmin olunması əsasında sosial-iqtisadi inkişafı sürətləndirməklə əhalinin rifah halının və məşğulluq səviyyəsinin yüksəldilməsinə, eləcə də layiqli yaşayış şəraitinin təmin olunmasına nail olunacaqdır.

**Missiya:** Rayonda sosial-iqtisadi inkişafın sürətləndirilməsinə, infrastruktur sahələrinin yenilənməsinə və ekoloji vəziyyətin yaxşılaşmasına nail olmaq üçün mövcud təbii-iqtisadi və insan resursları potensialının gücləndirilməsi və mümkün qədər tam və səmərəli istifadə edilməsinə şərait yaradılacaqdır.

**Hədəf göstəriciləri**:

- təbii-iqtisadi və insan resurslarından mümkün qədər tam və səmərəli istifadə olunması;
- sosial-iqtisadi inkişafın sürətləndirilməsi
- kənd yerlərində yaşayış şəraitinin yaxşılaşması;
- fiziki və sosial infrastrukturun yaxşılaşması;
- ekoloji vəziyyətin yaxşılaşması.

# 4. PLANIN MƏQSƏDLƏRİ VƏ PRİORİTET İSTİQAMƏTLƏRİ

## 4.1. Planın məqsədi

Planın məqsədi 2024-2026-ci illərdə Lerik rayonunun iqtisadi potensialını gücləndirmək, bu potensialın daha dolğun və səmərəli istifadəsini təmin etməklə rayonun sosial-iqtisadi inkişafını sürətləndirmək və dayanıqlılığını artırmaqdan ibarətdir.

Bu məqsədə nail olmaq üçün Planda Lerik rayonunun sosial-iqtisadi inkişafının sürətləndirilməsinə və dayanıqlılığının artırılmasına nail olunması üçün 8 prioritet istiqamət və bu prioritet istiqamətlər üzrə həyata keçirilməsi zəruri olan tədbirlər müəyyənləşdirilmişdir.

**Prioritet istiqamətlər**

**Prioritet 1: Kənd təsərrüfatının inkişafının gücləndirilməsi**

Rayonda aqrotexniki və aqrokimyəvi xidmətlərə əlçatanlılıq artırılacaq, eləcə də, müəyyənləşdirilmiş iri yaşayış məntəqələrində əlavə səyyar təchizat məntəqələri yaradılacaqdır.

Rayonda fəaliyyət göstərən fermerlərin  müntəzəm şəkildə maarifləndirmə tədbirlərinə cəlb olunması təmin ediləcək, eləcə də, onların keyfiyyətli toxum (kartof) və tinglərlə (alma və digər) təminatı səviyyəsinin yüksəldilməsi üçün tədbirlər görüləcəkdir.

Rayonda meşə qida məhsulları və yabanı dərman bitkilərinin satış məntəqələri yaradılacaq, və məhsulların sistemli yığımı təmin olunacaqdır.

Rayon üçün səciyyəvi olan yerli  kənd təsərrüfatı məhsullarının (kartof, alma, bal və s.) brendləşdirilməsi üçün zəruri işlər görüləcək, seçilmiş məhsullar üzrə fermer təsərrüfatı məhsullarının brendləşdirilməsi və satışının təşviqi həyata keçiriləcəkdir.

Rayonda yem tədarük-satış məntəqələri yaradılacaq, eyni zamanda seçilmiş məhsulların (ət, süd, yun, yumurta, arıçılıq məhsulları) ev təsərrüfatlarında ilkin emalı üçün fermerlər zəruri avadanlıq və vasitələrlə təmin olunacaqdır.

Kənd təsərrüfatının inkişafının sürətləndirilməsi üçün kənd təsərrüfatının intensivləşdirilməsi, o cümlədən, müasir yanaşmaların, mütərəqqi texnika və texnologiyaların tətbiq olunması (xüsusilə dağlıq relyefə uyğun) istiqamətində işlər gücləndiriləcək.

Rayonda bazar infrastrukturunun inkişafı gücləndiriləcək, xüsusilə, kənd təsərrüfatı məhsullarının satışı məqsədilə rayon daxili (şəhər mərkəzi və iri kəndlərdə) həftəsonu bazarlar (yarmarkalar) təşkil ediləcək, kəndlilərin, eləcə də fermerlərin istehsal etdikləri məhsullarının satışının həyata keçirməsinə şərait yaradılacaqdır.

**Prioritet 2: Sənayenin potensialından istifadənin gücləndirilməsi**

Rayonda sənayenin potensialından istifadənin gücləndirilməsi üçün kənd təsərrüfatı məhsullarının emalı müəssisələrinin yaradılması (kiçik ölçülü müəssisələr) və tikinti materialları sənayesinin potensialının artırılması istiqamətində işlər gücləndiriləcək.

Həmçinin rayonun müqayisəli üstünlüklərinə uyğun yeni sənaye sahələrinin müəyyənləşdirilməsi üçün araşdırmaların təşkili, belə müəssisələrin yaradılması, bu işə xarici və yerli investorların cəlb olunması, dövlət-özəl tərəfdaşlığı təşəbbüslərinin dəstəklənməsi istiqamətlərində tədbirlər görüləcəkdir.

**Prioritet 3: Sahibkarlığın inkişafının gücləndirilməsi**

Sahibkarlığın inkişafının gücləndirilməsi məqsədilə rayonda mövcud sahibkarlıq subyektlərinin bizneslərinin inkişafına, yeni sahibkarlıq subyektlərinin və müştərək sahibkarlıq modellərinin yaradılmasına dəstək tədbirləri artırılacaq.

Həmçinin rayonda biznes mühitin əlverişliliyinin artırılması istiqamətində işlər davam etdiriləcək, biznesə başlanması və biznesin aparılması prosedurlarının sadələşdirilməsi və bu sahədə maarifləndirmə işlərinin gücləndirilməsi istiqamətində tədbirlər görüləcək.

Eyni zamanda, sahibkarlıq subyektlərinə dövlət dəstəyi mexanizmlərinin əhatə dairəsinin genişləndirilməsi, onların maliyyə resurslarına çıxış imkanlarının artırılması, o cümlədən maliyyə-bank xidmətləri şəbəkəsinin şaxələndirilməsi və rayonda bazar infrastrukturunun inkişafı istiqamətində də işlərin gücləndirilməsi nəzərdə tutulur.

Eləcə də, rayonda bazar şəbəkəsinin genişləndirilməsi, e-ticarət və m-ticarət (elektron və mobil) də daxil olmaqla, müasir satış kanallarından istifadənin təbliği istiqamətlərində işlər görüləcəkdir.

**Prioritet 4: Turizmin inkişafının sürətləndirilməsi**

Rayonda turizmin inkişafının sürətləndirilməsi məqsədilə rayonun müvafiq imkanlara və potensiala malik ərazilərində dövlət-özəl tərəfdaşlığı əsasında Turizm-istirahət zonalarının yaradılması üçün zəruri işlər görüləcək.

Rayonun təbii-iqlim şəraiti və turizm potensialı nəzərə alınaraq rayonda aqro, eko, yaşıl və ev turizminin (homestay) inkişafı üçün tədbirlər görüləcək.

Eləcə də, turizm obyektlərində xidmətin keyfiyyətinin yüksəldilməsi, turizm üzrə marketinq, reklam və təbliğat işlərinin gücləndirilməsi üçün tədbirlər görüləcəkdir.

Rayonda turizm sənayesinin, o cümlədən, təbii rekreasiya ehtiyatlarından səmərəli istifadə istiqamətində də işlər aparılacaq, seçilmiş istiqamətlərdə turizm marşrutları təşkil ediləcəkdir.

**Prioritet 5: Əmək resurslarından istifadə səviyyəsinin yüksəldilməsi**

Rayonda insan potensialının inkişafı və layiqli iş yerlərinin artırılması yolu ilə əmək resurslarından istifadə səviyyəsinin yüksəldilməsi üçün tədbirlər görüləcəkdir. Bu məqsədlə, ilk növbədə, rayonda insanların müasir peşələr üzrə ixtisaslaşması və rəqəmsal bacarıqlarının artırılması istiqamətində işlər gücləndiriləcəkdir.

Eyni zamanda, rayonda urbanizasiya dərəcəsinin artırılması, iqtisadiyyatın diversifikasiyasının genişləndirilməsi və kənd təsərrüfatından asılılığın azaldılması üçün yerli xammal əsaslı sənaye və iqtisadiyyatın digər sahələrinin, o cümlədən xalq sənətkarlığının ənənəvi növlərinin inkişafı həvəsləndiriləcəkdir.

**Prioritet 6: Fiziki infrastruktur sahələrinin inkişafının sürətləndirilməsi**

Rayonda yaşayış məntəqələrinin fasiləsiz elektrik enerjisi ilə təmin edilməsi elektrik təchizatı şəbəkəsinin yenilənməsi istiqamətlərində işlər gücləndiriləcək.

Həmçinin, rayonda qazlaşma səviyyəsinin artırılması məqsədilə qaz olmayan yaşayış məntəqələrinin qaz təchizatı şəbəkəsinə qoşulması sürətləndiriləcək.

Rayonun kəndlərində içməli və suvarma suyuna tələbatın ödənilməsi üçün su təchizatı sisteminin imkanları artırılacaq və əhatə dairəsi genişləndiriləcəkdir.

Həmçinin, rayonda ictimai nəqliyyatın təşkili və kəndlərarası yolların təmiri istiqamətində müvafiq tədbirlər görülərək nəqliyyat infrastrukturu inkişaf etdiriləcəkdir.

Eyni zamanda, Lənkəran və Bakı şəhərlərindən Lerik rayon mərkəzinə etibarlı ictimai nəqliyyat xətləri təşkil olunacaq və rayonda mərkəzi avtovağzalın fəaliyyətə başlaması təmin ediləcəkdir.

Rabitə, o cümlədən internet şəbəkəsinin potensialı gücləndiriləcək və əhatə dairəsi genişləndiriləcək, bu sahədə göstərilən xidmətlərin keyfiyyəti yüksəldiləcəkdir.

**Prioritet 7: Sosial infrastruktur sahələrinin inkişafı**

Rayonda təhsil xidmətlərinin əhatə dairəsinin genişləndirilməsi və keyfiyyətinin yüksəldilməsi məqsədilə təhsil infrastrukturunun imkanları artırılacaq, təhsil müəssisəsi olmayan kəndlərdə şagirdlərin daşınması üçün avtobuslar təşkil ediləcək, eləcə də, bu sahənin ixtisaslı kadrlarla təminatının yaxşılaşdırılması istiqamətində tədbirlər görüləcəkdir.

Həmçinin, rayonda məktəbəqədər təhsil müəssisələri şəbəkəsinin genişləndirilməsi və ilkin təhsilə çıxış imkanlarının artırılması istiqamətində işlər gücləndiriləcəkdir.

Eyni zamanda, rayonda əmək bazarının tələblərinə cavab verən ixtisaslı kadrların sayının artırılması üçün peşə təhsili sisteminin maddi texniki bazası gücləndiriləcək və müvafiq sahələr üzrə yeni ixtisaslar açılacaqdır.

Rayonda, əhalinin səhiyyə xidmətlərinə əlçatanlığının artırılması məqsədilə səhiyyə xidməti şəbəkəsi genişləndiriləcək, ixtisaslı kadrlarla təminatı yaxşılaşdırılacaq və göstərilən xidmətlərin keyfiyyəti yüksəldiləcəkdir.

Eyni zamanda, ailədə, iş yerlərində, təhsil müəssisələrində və ictimai yerlərdə gender bərabərsizliyi ilə əlaqədar halların aradan qaldırılması, o cümlədən qadınlar və qızların təhsilə, səhiyyə xidmətlərinə, layiqli işə bərabər çıxış imkanlarına şərait yaradılması istiqamətində işlər davam etdiriləcək və genişləndiriləcəkdir.

**Prioritet 8: Ekoloji təhlükəsizliyin gücləndirilməsi**

Rayonda ekoloji təhlükəsizliyin mühafizəsi və iqlim dəyişikliklərinin təsirinin azaldılması məqsədilə, ilk növbədə, ətraf mühitin çirklənməsinin azaldılması, tullantıların yığılması və utilizasiyası, ekoloji nəzarətin təkmilləşdirilməsi və bərpa olunan enerjidən istifadə səviyyəsinin yüksəldilməsi istiqamətində işlər davam etdiriləcək və daha da gücləndiriləcəkdir.

Həmçinin meşələrin mühafizəsi, quru ağaclardan təmizlənməsi və bərpası və bu işlərə nəzarətin gücləndirilməsi istiqamətlərində tədbirlər görüləcəkdir.

Eyni zamanda, ətraf mühitin qorunması ilə əlaqədar maarifləndirmə və ekoloji menecmentin səmərəliliyinin artırılması, eləcə də rayonda təbii hadisələrə qarşı qabaqlayıcı tədbirlərin görülməsi istiqamətlərində də işlər daha da gücləndiriləcəkdir.

# 5. PLANIN DAYANIQLI İNKİŞAF MƏQSƏDLƏRİNƏ UYĞUNLUĞU

Plan, Birləşmiş Millətlər Təşkilatının “Dayanıqlı İnkişaf Məqsədləri”nin yuxarıda qeyd olunan alt məqsədləri ilə sıx əlaqələndirlmişdir. Plan ümumilikdə 11-ci DİM-ə istinad etməklə (*Şəhərləri və yaşayış məskənlərini inkluziv, təhlükəsiz, möhkəm və dayanıqlı etmək*), xüsusilə 11.a-nı hədəfləyir: milli və regional inkişaf planlamasını gücləndirməklə şəhər, şəhərətrafı və kənd əraziləri arasında müsbət iqtisadi, sosial və ekoloji əlaqələri dəstəkləmək.

**Planın Dayanıqlı İnkişaf Məqsədləri ilə əlaqəliliyi**

| Planın prioritet istiqamətləri | Dayanıqlı inkişaf məqsədləri | Qeyd |
|---|---|---|
| 1. Kənd təsərrüfatının inkişafının gücləndirilməsi |  | 1-ci prioritet DİM 2-ni dəstəkləyir: Aclığa son qoymaq, ərzaq təhlükəsizliyini təmin etmək, qidalanmanı yaxşılaşdırmaq, kənd təsərrüfatının dayanıqlı inkişafına dəstək vermək. Xüsusən də **2.3-**ü hədəfləyir: səmərəli resurslara və təchizatlara, məlumat, maliyyə xidmətləri, bazarlar, təsərrüfatdankənar məşğulluğa, eləcə də əlavə dəyər yaradan fürsətlərə çıxış imkanının təmin olunması vasitəsilə kənd təsərrüfatı sahəsində məhsuldarlığın və kiçik ölçülü ərzaq istehsalçılarının gəlirlərini artırmaq. |
| 2. Sənayenin potensialından istifadənin gücləndirilməsi |  | 2-ci prioritet DİM 9-u dəstəkləyir: Möhkəm infrastruktur yaratmaq, inklüziv və dayanıqlı sənayeləşməni təşviq etmək və innovasiyalara dəstək vermək. Xüsusən də **9.2-**ni hədəfləyir: “milli şəraitlərə uyğun olaraq sənayenin məşğulluq və ümumdaxili məhsulda payının əhəmiyyətli dərəcədə artırılması”. |
| 3. Sahibkarlığın inkişafının sürətləndirilməsi |   | 3-cü prioritet DİM 8 və 9-u dəstəkləyir: Hər kəs üçün davamlı, inklüziv və dayanıqlı iqtisadi artımı, tam və məhsuldar məşğulluq və layiqli əməyi təşviq etmək. Xüsusən də **8.3-**ü hədəfləyir: istehsal fəaliyyətlərinə, layiqli iş yerlərinin yaradılmasına və sahibkarlığa dəstək göstərmək, mikro, kiçik və orta ölçülü müəssisələrin formalaşdırılmasını və artımını həvəsləndirmək.<br><br>**9.3**: Kiçik ölçülü sənaye və digər müəssisələrin maliyyə xidmətlərinə, o cümlədən münasib kredit imkanlarına çıxışını artırmaq və onların dəyər zəncirlərinə və bazarlara inteqrasiyasını gücləndirmək. |

| | | |
|---|---|---|
| 4. Turizmin inkişafının artırılması | 8 LAYİQLİ ƏMƏK VƏ İQTİSADİ ARTIM | 4-cü prioritet DİM 8-i dəstəkləyir: davamlı, inklüziv və dayanıqlı iqtisadi artımı, hamı üçün tam və məhsuldar məşğulluğu və layiqli işi təşviq etmək. Xüsusən də **8.9**-u hədəfləyir: yerli mədəniyyətin inkişafını və yerli məhsulların istehsalını təşviq edən dayanıqlı turizmi təşviq etmək məqsədi ilə strategiyalar hazırlamaq və həyata keçirmək. |
| 5. Əmək resurslarından istifadə səviyyəsinin yüksəldilməsi | 8 LAYİQLİ ƏMƏK VƏ İQTİSADİ ARTIM | 5-ci prioritet DİM 8-i dəstəkləyir: davamlı, inklüziv və dayanıqlı iqtisadi artımı, hamı üçün tam və məhsuldar məşğulluğu və layiqli işi təşviq etmək. Xüsusən də **8.5**-i hədəfləyir: bütün qadınlar və kişilər üçün tam, səmərəli və layiqli məşğulluq imkanlarının yaradılmasına |
| 6. Fiziki infrastruktur sahələrinin inkişafının sürətləndirilməsi | 6 TƏMİZ SU VƏ SANİTARİYA<br>7 SƏRFƏLİ VƏ TƏMİZ ENERJİ<br>9 SƏNAYE, İNNOVASİYA VƏ İNFRASTRUKTUR | 6-cı prioritet DİM 6, 7, və 9-u dəstəkləyir: 6-cı Məqsəd: hər kəs üçün suyun və sanitariyanın əlçatanlığını təmin etmək, 7-ci Məqsəd: sərfəli, etibarlı, dayanıqlı və müasir enerjiyə əlçatanlığı təmin etmək, 9-cu Məqsəd: möhkəm infrastruktur qurmaq, inklüziv və dayanıqlı sənayeləşməni təşviq etmək, innovasiyanı stimullaşdırmaq.<br>Xüsusən də **6.4**-ü hədəfləyir: su çatışmazlığı problemini həll etmək və su çatışmazlığından əziyyət çəkən insanların sayını əhəmiyyətli şəkildə azaltmaq üçün bütün sahələrdə sudan səmərəli istifadəni əhəmiyyətli dərəcədə artırmaq, eləcə də su ehtiyatlarının dayanıqlı istifadəsini və təmiz su təchizatını təmin etmək, eləcə də **9c**: internetə qlobal və sərfəli çıxış imkanları təmin etmək məqsədilə İKT-yə əlçatanlığı artırmaq, habelə **11.2**: yol təhlükəsizliyini təmin etmək, xüsusilə ictimai nəqliyyatı genişləndirmək, bununla da hamıya təhlükəsiz, sərfəli, əlçatan və dayanıqlı nəqliyyat sisteminə çıxış imkanı təmin etmək. |
